# Qəhrəmanın bulaq ömrü



***Azərbaycanın qeyrətli oğulları İkinci Qarabağ müharibəsində misilsiz qəhrəmanlıq nümunəsi göstərərək qanları bahasına 30 il düşmən əsarətində qalan əzəli Vətən torpaqlarını 44 günə azad etdilər. Öz şirin canını qurban verib xalqa qələbə sevincini yaşadan minlərlə igidlərdən biri də Lerik rayonunu Hovil kəndində dünyaya göz açan İmaməli Elman oğlu İbrahimovdur. İmaməli 25 yaşında Vətən, torpaq uğrunda şəhid olaraq milyonların ürəyində özünə əzəmətli, əbədi abidə ucaltdı. Bu qısa ömür bütöv bir xalqın qəhrəmanlıq simvoluna çevrildi.***

İmaməli İbrahimovun doğma kəndində böyük də, kiçik də həmişə, hər yerdə adını uca tuturlar, onunla qürur duyurlar. Kənddə Vətən müharibəsinin şəhidi, elin qəhrəman oğlunun xatirəsinə bulaq kompleksi də inşa olunub. Bu günlər onun açılış mərasiminə qatılan insanların sayı bilinmirdi. Lerik Rayon İcra Hakimiyyəti başçısı Əkbər Abbasov və şəhidin babası Dadaş İbrahimov tərəfindən bulaq kompleksinin üzərindən örtük götürüldü və önünə gül-çiçək dəstələri düzüldü.

Çıxışlarda İmaməli İbrahimovun Vətən sevgisindən, onun döyüşlərdə göstərdiyi qəhrəmanlıqdan fəxrlə danışıldı. İcra başçısı Ə. Abbasov şəhid ailələrini və kənd sakinlərini salamlayıb abidə kompleksinin tikintisində dəstək göstərən hər kəsə minnətdarlığını söylədi, daha sonra bildirdi ki, Azərbaycanımızın bütövlüyü naminə, Vətən torpaqların azadlığı uğrunda şəhid olmuş hər bir qəhrəmanın xatirəsi daim əziz tutulur, onların adının əbədi yaşaması üçün dövlət tərəfindən müxtəlif tədbirlər həyata keçirilir, eləcə şəhid ailələri hər zaman diqqət mərkəzində saxlanılır. Bu günlərdə Vətən müharibəsində qazandığımız Şanlı Qələbənin təcəssümü olan Zəfər Gününün ikinci ildönümünü dünya azərbaycanlıları iftixarla qeyd etdilər. Vətən müharibəsinin 44 günü ərzində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər Azərbaycan ordusu işğal altındakı torpaqları azad etməklə xalqımızın qüdrətini bir daha bütün dünyaya bildirildi. Ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsi həmişə ehtiramla xatırlanar. Lerikin qəhrəman oğlu İmaməli də onların içində olmaqla..

Şəhidin babası Dadaş İbrahimov çıxış edərək şəhid ailələrinə, müharibə veteranlarına göstərilən yüksək diqqət və qayğıya görə ölkə rəhbəri cənab İlham Əliyevə minnətdarlığını səmimi ürək sözləri ilə söylədi. Onu da vurğuladı ki, nəvəsi İmaməli az yaşasa da, layiqli bir övlad kimi Vətən qarşısında son borcunu şərəflə verib. Onun şəhidliyi Vətəninə, millətinə başucalığı gətiribdir. Həm də dövlət tərəfində ölümündən sonra layiq görüldüyü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və digər medalları bizə təsəllidir.

Qılqılov kənd ümumi orta məktəbi şagirdlərinin ifasında səslənən kompozisiya da şəhidlərə həsr olunmuşdu.

***Zəfər Orucoğlu, AJB üzvü***